# ADİ DƏLİBƏNG (*Datura stramonium*) BİTKİSİNİN ANATOMİK XÜSUSİYYƏTLƏRİ VƏ DƏRMAN ƏHƏMİYYƏTİ

**Aygün Sərdarova**

*Azərbaycan Dövlət Aqrar Univerisiteti, Gəncə*
*aygun.sardarova@mail.ru*

Adi dəlibəng badımcançiçəklilər (*Solanaceae*) fəsiləsinin dəlibəng cinsinə aid bitki növüdür. Hündürlüyü 1,5 m-dək olan mil köklü, güclü budaqlı, birillik ot bitkisidir. Gövdəsi düzdayanan, çəngəlvari budaqlanmış, çılpaqdır. Yarpaqları növbəli, bütöv yumurtavari, iri oyuqlu-dişli, ucu biz, saplaqlı, üstü tünd-yaşıl, alt tərəfi açıqdır. Ağ rəngli ucda və ya qoltuqda yerləşən iri, tək çiçəkləri qoxuludur. Ağ qıfvari büküklü çiçək tacı və kasacığı bitişik yarpaqlı, beşhissəlidir. İyun-avqustda çiçəkləyir. Meyvəsi dördyuvalı, dörd laylarla açılan, iynələrlə örtülmüş qutucuqdur. Yetişdikdə qutucuq açılır. Toxumları çoxsaylı, tutqun-qaradır. Bir toxumun çəkisi 3-3,5 mm, 2,5-3 mm və 1,5-2 mm-dir. 1000 toxum isə 5-8 qramdır. Bir qutucuqda 500-800 ədəd, bir bitkidə 25-45 min toxum yetişir.

*Datura stramonium* bitkisinin bütün orqanlarının tərkibində alkaloidlər (tropan sırası), hiosçiamin, aşağı dozalarda atropin və skopolamin tapılmışdır. Tərkibində az miqdarda apoatropin, belladonin, bəzən isə uçucu birləşmələr vardır. Kök və yarpaqlarında (0,23-0,35%), gövdələrində (0,06-0,2%), köklərində (0,12-0,27%) az miqdarda alkaloidlər tapılır. Alkaloidlərdən başqa, yarpaqlarında aşı maddələri və karotinoidlər tapılmışdır. Toxumlarında 17-25% piyli yağlar vardır. Çiçəkləri yaşıl, zəif iyli olub, dadı təyin edilməmişdir. Bitkidən spazmolitik, M-xolinoblokator və yerli keyləşdirici dərmanlar hazırlanır.

 

**Şəkil 1.** *Datura stramonium* növünün gövdəsinin mikroskopik quruluşu

Tibbi istifadəsi zamanı bağırsağın, bronxların saya əzələlərini genişləndirir, ödyolu, sidikyolu əzələlərini boşaldaraq spazmı aradan götürür. Vəzi şirəsinin ifrazını tormozlayaraq, tər, mədəaltı və mədə şirəsini azaldır. Tənəffüs mərkəzini oyadaraq tonuslandırır. Azan sinirin fəaliyyətini azaldır. Yarpaqlarından astma əleyhinə hazırlanan qarışıqdan "astmatol" və siqaret kimi "astmatin" bronxial astma xəstəliyinin müalicəsində yaxşı təsir göstərir.

Tədqiqat üçün *Datura stramonium* növü Kiçik Qafqazın dağlıq ərazisindən toplanılmışdır. Bitki spirtdə fiksasiya olunduqdan sonra anatomik analizlərə cəlb olunmuşdur. Bitkinin bütün vegetativ orqanlarından kəsiklər hazırlanmışdır. Mikroskopik analizlər zamanı bütün orqanlarda toplanmış alkaloidlər aydın şəkildə müşahidə olunmuşdur. Yüxarıda qeyd olunan bitkinin əczaçılıq əhəmiyyətini sübut edən bioloji fəal maddələr mikrofotoşəkildə verilmişdir.



**Şəkil 2.** *Datura stramonium* bitkisinin gövdə parenximasında alkaloidlərin mikrofotoşəkli